**9 oktyabr—prezident seçkiləri günüdür**

# Təhsil işçiləri İlham Əliyevə səs verəcəklər

28 sentyabr 2013-cü il tarixdə Qəbələ şəhər Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzində rayon təhsil işçilərinin Azərbaycan Respublikası prezidentliyinə namizədliyi YAP tərəfindən irəli sürülmüş Əliyev İlham Heydər oğlunun təbliğatına həsr olunmuş tədbiri keçirilmişdir

Toplantıda MM üzvü, respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov, professor Elman Məmmədov, YAP Qəbələ Rayon Təşkilatının sədri Abil Ağasəfov iştirak edirdilər.

Toplantını giriş sözü ilə təbliğat qrupunun üzvü Arifə Bayramova açmışdır. O, çıxışında son 10 ildə Azərbaycan Respublikasında o cümlədən Qəbələ rayonunda sosial-iqtisadi sahədə, təhsil sahəsində əldə olunan nailiyyətlərdən bəhs etmişdir. Bu nailiyyətlərin Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri, möhtərəm cənab İlham Əliyevin yorulmaz fəaliyyətinin nəticəsi olduğunu xüsusi vurğulamışdır.

Yığıncaqda həmyerlimiz professor Elman Məmmədov çıxış edərək bir Qəbələ ziyalısı kimi son illər Qəbələ rayonunda bütün sahələrdə əldə olunmuş uğurlardan danışmışdır. Eyni zamanda bildirmişdir ki, bu uğurlar ancaq ölkə Prezidenti möhtərəm cənab İlham Əliyevin gündəlik diqqət və qayğısı sayəsində mümkün olmuşdur. O əmin olduğunu bildirmişdir ki, Qəbələ seçicilərinin böyük bir qrupu olan təhsil işçiləri də Azərbaycan Respublikası prezidentliyinə namizəd möhtərəm cənab İlham Əliyevə yekdilliklə səs verəcəklər. Çünki bu uğurların sürətlə davam etdirilməsi ancaq İlham Əliyev cənablarının rəhbərliyi ilə həyata keçirilə bilər.





Sonra təhsil işçilərindən Vüsalə Nemətova, Təranə Səlimova, Firidun Mürsəlov, Könül Nəbiyeva, Zərnişan Ağamirzəyeva, Elsevər Mustafayev, Məhəbbət Rüstəmova çıxış etmişlər. Onlar öz çıxışlarında təhsil sahəsində qazanılan uğurlardan bəhs etmişlər. Çıxış edənlərin hər biri bütün sahələrə olduğu kimi təhsilə də ölkə Prezidenti möhtərəm cənab İlham Əliyevin daimi diqqət və qayğısının olduğunu qeyd edərək, qarşıdan gələn prezident seçkilərində Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi möhtərəm cənab İlham Əliyevə səs verəcəklərini bildirmişlər.

MM üzvü, respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov tədbir iştirakçılarını salamlamış, yeni dərs ilində onlara məsuliyyətli və şərəfli işlərində böyük uğurlar arzulamışdır. Qeyd olunmuşdur ki, 22 il bundan əvvəl sovetlər ittifaqı dağıldı, bu ittifaqa daxil olan 15 respublika müstəqillik əldə etdi. Lakin onların arasında Azərbaycanın başına gələn müsibətlər, ağrı-acılar digər ölkələrin heç birinin başına gəlməmişdir. Heç bir ölkənin sərhədləri pozulmamış, torpaqları işğal olunmamış, bir milyon əhalisi yurd-yuvasından didərgin düşməmiş, 20 min əhalisi şəhid olmamışdır. Ermənilərsə Azərbaycanın başına bu müsibətləri gətirdilər. Səbəbi isə aydın idi. O vaxtlar Azərbaycana səriştəsiz, dövlətçilikdə təcrübəsi olmayan şəxslər rəhbərlik edirdi, respublika ölüm və ya dirim dileması qarşısında qalmışdı. Bu müsibətlərə isə Heydər Əliyevin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıtması ilə son qoyuldu. Məhz hazırki inkişaf, tərəqqi, Heydər Əliyev yoludur. Bizim hamımızın ancaq bir yolu var: bu yol Heydər Əliyev yoludur. Bu yol respublikamızın uzaqgörən, təşəbbüskar, bacarıqlı və qətiyyətli Prezidenti İlham Əliyevin rəhbərliyi altında davam edir. Bu yolda onunla və sizlərlə birlikdə yeni-yeni uğurlara doğru addımlayırıq. Mən inanıram ki, təhsil işçiləri İlham Əliyevə Heydər Əliyev yolunun layiqli davamçısına səs verəcəkdir.

**Oqtay MƏMMƏDOV.**
**Fotolar**
**Ş. Süleymanovundur.**

# Səhiyyə işçiləri seçkilərə ruh yüksəkliyi ilə hazırlaşırlar

Rayon mərkəzi xəstəxanasının əmək kollektivinin yığıncağı keçirilmişdir. Yığıncağı Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının şura üzvü Sabir Bayramov açmışdır. O, çıxışında son 10 ildə Azərbaycan Respublikasında, o cümlədən Qəbələ rayonunda sosial-iqtisadi sahədə, səhiyyə sahəsində əldə olunan nailiyyətlərdən bəhs etmişdir. S. Bayramov bu nailiyyətlərin Azərbaycan Respublikasının Prezidenti Yeni Azərbaycan Partiyasının sədri, möhtərəm cənab İlham Əliyevin yorulmaz fəaliyyətinin nəticəsi olduğunu xüsusi vurğulamışdır.

Sonra həkimlərdən Dilarə Hacıyeva, İlqar Cəlilov, Ceyhun Əhmədov, Tofiq Hacıyev Qəbələ Müalicə-Diaqnostika Mərkəzinin baş həkiminin müavini Kamal Məmmədov çıxış etmişlər. Onlar öz çıxışlarında hər biri öz sahəsi üzrə səhiyyə sahəsindəki uğurlardan yeniliklərdən bəhs etmişlər. Çıxış edənlər bütün sahələrdə olduğu kimi səhiyyəyə də ölkə Prezidenti möhtərəm cənab İlham Əliyevin daimi diqqət və qayğısının olduğunu qeyd edərək qarşıdan gələn prezident seçkilərində həmkarlarını indiki ölkə Prezidentinə Yeni Azərbaycan Partiyasının Prezidentliyə namizədi möhtərəm cənab İlham Əliyevə səs verməyə çağırmışlar.

Yığıncaqda həmyerlimiz görkəmli təhsil işçisi, professor Elman Məmmədov çıxış edərək Qəbələdən yetişmiş bir ziyalı kimi son illər Qəbələ rayonunda iqtisadi və sosial sahədə əldə olunmuş uğurlardan məmnun qaldığını bildirmişdir. Eyni zamanda bildirmişdir ki, bu uğurlar ancaq ölkə Prezidenti möhtərəm cənab İlham Əliyevin gündəlik diqqət və qayğısı sayəsində mümkün olmuşdur. O, əmin olduğunu bildirmişdir ki, bütün Qəbələ seçiciləri kimi səhiyyə işçiləri də Azərbaycan Respublikası Prezidentliyinə namizəd, möhtərəm cənab İlham Əliyevə yekdilliklə səs verəcəklər. Çünki bu uğurların sürətlə davam etdirilməsi ancaq İlham Əliyev cənablarının rəhbərliyi ilə mümkündür.

Böyük ruh yüksəkliyi ilə keçən yığıncaq iştirakçıların yekdil rəyi ilə başa çatmışdır.

**Qüdrət SƏMƏDOV,**
**"Qəbələ" qəzetinin**
**əməkdaşı.**

# Kürd kəndində seçicilərlə görüş

Rayonun qəsəbə və kəndlərində bir neçə gündür ki, Yeni Azərbaycan Partiyası tərəfindən prezidentliyə namizədliyi irəli sürülmüş Əliyev İlham Heydər oğlunun namizədliyini müdafiə etmək üçün partiyanın Qəbələ Rayon Təşkilatı üzrə yaradılmış təbliğat qrupları tərəfindən seçkiqabağı təbliğat kampaniyasına başlanmışdır.



Belə tədbirlərdən biri Kürd və Qaradeyin kəndlərində keçirilmişdir.

Görüşü Yeni Azərbaycan Partiyası tərəfindən yaradılmış təbliğat qrupunun üzvü Qüdrət Səmədov açmış, son 10 ildə prezidentliyə namizəd İlham Əliyevin rəhbərliyi ilə görülən işlərdən, qazanılan uğurlardan, respublikanın bütün rayonlarında, qəsəbə və kəndlərində aparılan tikinti-abadlıq işlərindən, habelə xarici siyasət sahəsindəki nailiyyətlərindən danışmışdır.

Tədbirdə təbliğatçı Beşir Əliyev Azərbaycanın çoxəsrlik dövlətçilik tarixindən, müstəqilliyimizin əldə olunması və qorunub saxlanılmasından, son illərdə daxili və xarici siyasət sahəsində qazanılan uğurlardan söhbət açmışdır. Natiq regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının qəbul olunması, burada nəzərdə tutulan işlərin həyata keçirilməsi nəticədə çoxsaylı yeni iş yerlərinin yaradıldığını diqqətə çatdırmışdır.

Kənd ağsaqqalları adından İkram Məmmədxanov, müəllim Nemət Qurbanov, Ümüdvar Həsənov çıxış edərək son 10 il ərzində Qəbələ rayonunda, habelə Kürd kəndində xeyli işlərin görüldüyünü qeyd etdilər. Qaradeyin kəndi ərazisində üzüm emalı zavodunun fəaliyyətə başlaması nəticəsində burada Kürd və Qaradeyin kəndlərindən xeyli gənc işlə təmin olunmuşdur.

Kənd sakinləri qarşıdakı seçkidə yekdilliklə Yeni Azərbaycan Partiyasının namizədi möhtərəm cənab İlham Əliyevi dəstəkləyəcəklərini bildirdilər.

**Foto S. Umuyevindir.**